

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 27 (21.688)

*8 fevral 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


İcmal

## 2017-ci ilin ilk ayı Naxçıvanın sosial-iqtisadi həyatında əlamətdar hadisələrlə yadda qalıb

***Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsinə qədəm qoyub. 2017-ci ilin ilk ayının yekunları da muxtar respublikanın gələcək inkişafında yeni imkanlardan lazımınca istifadə olunacağı qənaəti yaradır. Bəs cari ilin yanvar ayı Naxçıvan üçün hansı əlamətdar hadisələrlə yadda qaldı? Ay ərzində muxtar respublika həyatında baş verən dəyişikliklərə nəzər salaq.***



Təbii ki, ötən ayın ümumi mənzərəsinə nəzər saldıqda muxtar respublikanın həyatında ən önəmli hadisə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəridir. Yanvarın 11-də ölkə başçısının ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etməklə başlanan səfəri muxtar respublikada bir sıra mühüm obyektlərin istifadəyə verilməsi ilə yadda qalıb. Belə ki, dövlətimizin başçısı ilk olaraq Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib. Sonra isə Prezident İlham Əliyev Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində, Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa olunmuş yaşayış binasının, Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin, Şahbuz rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışlarında iştirak edib. Səfərinin sonunda Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbi binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində çıxış edən dövlət başçısı deyib: ***"Naxçıvan Muxtar Respublikasında yenidən olmağımdan çox şadam. Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Bu, mənim Prezident kimi muxtar respublikaya sayca 13-cü səfərimdir. On üç il ərzində on üçüncü dəfədir ki, Naxçıvandayam. Bu rəqəm özlüyündə bir göstəricidir, onu göstərir ki, Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, respublikanın problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm və Naxçıvana həmişə çox böyük diqqət verilir, böyük qayğı göstərilir.***

***Çox şadam ki, respublikanın uğurlu inkişafı təmin edilir. Bu münasibətlə respublikanın rəhbərliyini və sakinlərini təbrik etmək istəyirəm. Doğrudan da son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvana səfərinin ertəsi günü Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5,0 (beş) milyon manat ayrılıb.

Son illər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında qarşılıqlı əməkdaşlıq münasibətləri daha da inkişaf edərək özünün yeni mərhələsinə qədəm qoyub. İqtisadi, siyasi, humanitar sahələrdə əldə olunmuş müsbət nəticələr iki ölkə arasında nəqliyyat sektorunun da inkişaf etdirilməsinə şərait yaradıb. Ötən il dekabrın 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının Naxçıvandan İran İslam Respublikasına yola düşməsi regionumuz üçün əhəmiyyətli hadisələrdən biri kimi xatırlanır. 2017-ci il yanvarın 3-də adıçəkilən qatar ilk sərnişinlərini İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına çatdırıb. Həftədə iki dəfə fəaliyyət göstərən qatar Naxçıvanla İran İslam Respublikası arasında inkişaf edən əlaqələrin məntiqi nəticəsidir. Xatırladaq ki, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanmış Çərçivə Sazişində öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında yaşayış məntəqələrinin abadlaşdırılması mühüm yer tutur. Muxtar respublika sakinlərinə göstərilən dövlət qayğısının nəticəsidir ki, hazırda ən ucqar kənd yaşayış məntəqələrində də kompleks quruculuq işləri görülür, yeni yollar salınır, təhsil, səhiyyə, mədəniyyət obyektləri istifadəyə verilir, əhalinin rahat yaşamaq imkanları artır. Kompleks quruculuq tədbirlərinin aparıldığı kənd yaşayış məntəqələrində belə layihələrin həyata keçirilməsi cari ildə də davam etdirilir. Yanvarın 5-də Naxçıvan şəhərinin Tumbul kəndində cari ilin ilk yeni quruculuq obyektlərinin açılışı olub. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Tumbulda kənd və xidmət mərkəzləri, Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin binası istifadəyə verilib.

Məktəbin açılış mərasimində çıxış edən Ali Məclisin Sədri deyib: ***"Bu gün ümummilli liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərir, bu sahədə lazımi normativ hüquqi aktlar qəbul olunur. Hazırda ölkəmizdə təhsilin bütün pillələri təmin edilmiş, gənc nəsil üçün müasir tədris şəraiti yaradılmışdır. Bununla yanaşı, gənclərin xarici ölkələrdə ali təhsil alması üçün də dövlətimiz tərəfindən lazımi köməklik göstərilir. Bir sözlə, Azərbaycan dövləti öz gələcəyini təmin etmək üçün gənclərin hərtərəfli təhsil alması qayğısına qalır. Yaradılan şəraitin nəticəsi olaraq isə vətənpərvər, təhsilli və peşə sahibi olan gənclər yetişdirilir. Bu da həm cəmiyyət, həm də dövlət üçün vacib məsələdir... Məktəbin nailiyyətləri onu deməyə imkan verir ki, burada müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulub. Yaradılan müasir tədris şəraiti gələcəkdə nailiyyətlərin daha da artmasına imkan verəcək, məktəbdə təhsilli və vətənpərvər gənclər yetişdiriləcəkdir".***

Həmin gün Tumbulda içməli su və kanalizasiya şəbəkəsinin də açılışı olub.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi üzrə kənddə 18 kilometrdən artıq içməli su və 15 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi çəkilib, mənzillərdə sayğaclar quraşdırılıb. Kənddə, ümumilikdə, 503 abonent içməli su və kanalizasiya şəbəkəsinə qoşulub. Görülən işlərlə yanaşı, Tumbul kəndində 2 kilometrlik kənddaxili avtomobil yoluna asfalt örtük salınıb, beton kanal çəkilib və 5 su keçidi qoyulub. Bundan əlavə, kənddə rabitə xətləri yenilənib, 2740 metrlik müxtəlif tutumlu kabel xətti, 800 metrlik elektrik xətti, 230 metr yeraltı elektrik xətti çəkilib, qaz xətlərində təmir işləri aparılıb.

Yanvarın 7-də isə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyası keçirilib. Sessiyanın müzakirəsinə 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsinin təsdiq edilməsi, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2017-ci il büdcəsinin təsdiq edilməsi, "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı kimi məsələlər verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sessiyada məruzə edərək muxtar respublikada müxtəlif sahələrin inkişafı haqqında danışıb, ötən il əldə olunmuş uğurlu nəticələrdən bəhs edib. Həmin gün Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 9-cu bəndinə uyğun olaraq müasir elmi nailiyyətlərə və tibbi təcrübəyə əsaslanaraq insan orqan və ya toxumalarının transplantasiyası (köçürülməsi) ilə bağlı münasibətləri tənzimləyən "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilib.

Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması qarşıda duran ən mühüm vəzifələrdən biri hesab olunur. Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, ötən dövrdə muxtar respublikanın şəhər və rayonlarında müxtəlif idman obyektləri tikilib, uşaq, yeniyetmə və gənclərin idmanla məşğul olmaları, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Bu sahədə görülən işlərin nəticəsidir ki, son illər muxtar respublikada gənclərin idmana marağı daha da artıb, idmançılarımız ölkə və dünya əhəmiyyətli idman yarışlarında iştirak edərək uğurlu nəticələrə imza atıblar. İdmana göstərilən diqqət həm də onda özünü göstərir ki, hər il muxtar respublikada bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti ilə bağlı keçirilən müşavirələrdə idman qurumları və federasiyaların fəaliyyəti müzakirə edilir, qarşıda duran vəzifələr müəyyənləşdirilir. Məhz yanvar ayının önəmli hadisələrindən biri də ötən ayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə müşavirə keçirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müşavirədə gənclərin asudə vaxtının səmərəli təşkilində, onların sağlam böyüməsində və gələcəyə hazırlanmasında idmanın əhəmiyyətindən bəhs edərək gənclərin idman növlərinə marağının artırılması ilə bağlı aid təşkilatlara və federasiyalara tapşırıqlar verib. Bildirilib ki, bədən tərbiyəsi və idmanla məşğul olmaq təkcə yarışlarda iştirak etmək və yüksək nailiyyət əldə etmək məqsədi daşımır; bu, eyni zamanda xəstəlik və zərərli vərdişlərin qarşısının alınmasını, əhali sağlamlığının təmin olunmasını da nəzərdə tutur. Bu xüsusatı əsas götürərək ona nail olmalıyıq ki, muxtar respublikada bədən tərbiyəsi və idman sahəsində yaradılanlardan bütün vətəndaşlar, o cümlədən gənclər səmərəli istifadə etsinlər. Ona görə də Gənclər və İdman Nazirliyi, idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idmanın kütləviliyinin artırılması sahəsində fəaliyyətlərini gücləndirməlidirlər.

Naxçıvan Muxtar Respublikasının qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə əlaqələri hər ötən gün daha da genişlənir. Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan bu əlaqələr hazırda hər iki qonşu ölkə ilə uğurla davam etdirilir. Muxtar respublikanın sosial-iqtisadi inkişafının ilbəil yüksəlməsi isə regionun xarici iqtisadi əlaqələrinin möhkəmlənməsinə imkan verir. 2017-ci ilin yanvar ayı həm də Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Belə ki, yanvarın 16-da Türkiyə Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndə heyəti Naxçıvana səfəri çərçivəsində muxtar respublikanın yerli istehsal müəssisələrində olub, ixrac potensialı ilə maraqlanıb. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Türkiyədən gəlmiş nümayəndə heyəti üzvlərinin yerli sahibkarlarla görüşü keçirilib. Türkiyənin ölkəmizdəki səfirliyinin və Naxçıvandakı Baş Konsulluğunun nümayəndələrinin də iştirak etdiyi tədbirdə muxtar respublikada istehsal olunan məhsulların qardaş ölkəyə ixrac edilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

20 Yanvar hadisələri xalqımızın qəhrəmanlıq səhifəsində mühüm yer tutur. Bu hadisə nə qədər faciəvi olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gün həlak olan vətən oğulları xalqımızın tarixinə parlaq səhifə yazdılar, milli azadlığımız və suverenliyimiz üçün yol açdılar. Buna görə də bu tarixi gün hər il ölkəmizdə qeyd olunur. Bu il də 20 Yanvar hadisələrinin ildönümü muxtar respublikanın hər yerində kütləvi şəkildə qeyd edilib. Yanvarın 20-də saat $12^{00}$-da Azərbaycanın bütün ərazilərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib,

*Ardı 2-ci səhifədə*

nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanla İran İslam Respublikası arasında müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələri yüksələn xətt üzrə inkişaf edir. Xüsusilə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi əlaqələrin qurulması yaxın region kimi hər iki tərəf üçün perspektivli tərəfləri ilə seçilir. Yanvarın 24-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadətin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri bu əlaqələrin inkişafına öz töhfəsini verəcək. Qeyd edək ki, səfər çərçivəsində Qərbi Azərbaycan Vilayətinin sənaye, mədən, kənd təsərrüfatı, tikinti sahələrində fəaliyyət göstərən iş adamları Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan məhsullarla tanış olublar, naxçıvanlı sahibkarlarla görüşüblər. Sahibkarlarla keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası və Qərbi Azərbaycan Vilayətində istehsal olunan məhsulların qarşılıqlı olaraq ixracı və idxalının, iş adamları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, geniş fikir mübadiləsi aparılıb. Muxtar respublikada istehsal edilən məhsullarla tanış olan nümayəndə heyətinin üzvləri Naxçıvanla Qərbi Azərbaycan Vilayəti arasında iqtisadi əməkdaşlıq üçün münbit şəraitin olduğunu bildiriblər.

Göründüyü kimi, 2017-ci ilin ilk ayı muxtar respublikada kifayət qədər əlamətdar hadisələrlə yadda qalıb. Yanvar ayının ümumi mənzərəsi onu göstərir ki, ötən il əldə olunmuş uğurlu nəticələr cari ildə də davam etdirilir. Muxtar respublikanın sosial və iqtisadi həyatında atılan addımlar, xüsusilə iqtisadi sahədə keçirilən görüş və tədbirlər Naxçıvanın daha da sürətli inkişafına öz töhfəsini verəcəkdir.

✍ **Səbuhi HƏSƏNOV**

## Təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub

***Culfa rayonunda təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib. Tədbiri Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açıb.***

Culfa Rayon Təhsil Şöbəsinin müdiri Adəm Qasımov muxtar respublikada təhsilə göstərilən qayğıdan danışıb. Vurğulanıb ki, rayonun ümumtəhsil məktəblərinə 74 ədəd elektron lövhə, 440 ədəd kompüter dəsti və 121 ədəd printer verilib, 36 kompüter otağı yaradılıb. Kompüterlər internet şəbəkəsinə qoşulub.

Təhsil Şöbəsi tərəfindən dərs ilini müvəffəqiyyətlə başa çatdırmaq və buraxılış imtahanlarında yüksək nəticələr əldə etmək üçün IX-XI siniflərdə yoxlama test-sınaq imtahanları keçirilib və nəticələr məktəb direktorlarının iştirakı ilə müzakirə olunub. Bildirilib ki, təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsi, fiziki tərbiyə, hərbi hazırlıq fənlərinin tədrisi diqqətdə saxlanılır, məktəblilərin istedad və bacarığının aşkarlanması, onların asudə vaxtlarının səmərəli təşkili üçün ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrində müxtəlif tədbirlər keçirilir.



Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edərək bildirib ki, Culfa rayonunda da təhsilin inkişafına böyük diqqət və qayğı göstərilir. Təkcə 2016-cı ildə Saltaq kəndində 306, Gülüstan kəndində 156 şagird yerlik yeni məktəb binaları tikilib. Xanəgah kəndində 198 şagird yerlik məktəb binası əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilib. Hazırda rayonda fəaliyyət göstərən 26 məktəbdən 22-nin binası yenidən tikilib və ya təmir olunub.

2015-2016-cı tədris ilində rayon məktəblərinin 398 məzunundan 156 nəfəri ali məktəblərin, 19 nəfəri orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb. Ali məktəblərə qəbul olunan məzunlardan 35-i 500-700 intervalında bal toplayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı 2015-2016-cı tədris ilində rayonda sağlamlıq imkanları məhdud 7 uşaq tam orta məktəblərin birinci sinfinə cəlb edilib.

Rayon İcra Hakimiyyətinin başçısı diqqəti yol verilmiş nöqsanlara yönəldərək deyib ki, təhsil sisteminə göstərilən dövlət qayğısına baxmayaraq, rayonun ümumtəhsil müəssisələrinin fəaliyyətində hələ də bir sıra nöqsan və problemlər qalmaqdadır. Belə ki, yeni məktəb binalarının tikilməsinə, onların müasir informasiya texnologiyaları ilə təmin olunmasına, təhsil müəssisələrində yüksək tədris şəraitinin yaradılmasına baxmayaraq, hələ də bəzi təhsil müəssisələrinin fəaliyyəti qənaətbəxş deyil.

Təhsil müəssisələrinin yerləşdikləri binaların və avadanlıqların qorunması diqqətdə saxlanılmalıdır, – deyən İcra Hakimiyyətinin başçısı bildirib ki, verilən tapşırıqları, qarşıya qoyulan vəzifələri rəhbər tutaraq rayonun təhsil sisteminin hərtərəfli inkişafı üçün bütün imkanlardan maksimum istifadə edərək mövcud nöqsanları aradan qaldırmalı, 2016-2017-ci tədris ilində əzmlə və məsuliyyətlə çalışıb ili yüksək nailiyyətlərlə başa vurmalı, təhsilimizin inkişafına öz töhfəmizi verməliyik.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## *"Naxçıvan Duz İstehsalı"* Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac imkanları genişlənir



***Son illər muxtar respublikamızda reallaşdırılan irimiqyaslı layihələr nəticəsində daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəlif təyinatlı yeni istehsal müəssisələri yaradılıb. Hazırda muxtar respublikamızda 366 növdə yerli məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat yerli imkanlar hesabına ödənilir.***

Daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri də "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Zəngin duz yataqları Naxçıvan şəhərindən 12 kilometr aralıda, dəniz səviyyəsindən 1173 metr yüksəklikdəki Duzdağ ərazisində yerləşir. Bu mədənlərdə duz istehsalının tarixi e.ə. III-II minilliklərə təsadüf edir. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına isə ilk dəfə 1927-ci ildə başlanılıb.

Son illər duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılıb, 1990-cı illərin əvvəlində baş verən iqtisadi böhran nəticəsində istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilməklə müəssisə yenidən qurularaq istifadəyə verilib. 2005-ci ildə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı müəssisəsi tikilərək istehsala başlanılıb. Burada bütün istehsal prosesi avtomatlaşdırılıb, paketləyici avadanlıq quraşdırılıb. Hazırda müəssisədə 200, 250 və 500 qramlıq taralarda qablaşdırılan məhsullar istehsal edilir.

2010-cu ildə quraşdırılan 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq əl əməyini yüngülləşdirib, yüksəkkeyfiyyətli məhsul istehsalına təminat yaradıb. Duz mədənində istehsalatda baş verə biləcək qəzaların qarşısının alınması məqsədilə 2014-cü ildə bir sıra tədbirlər həyata keçirilib, 300 metrlik ehtiyat çıxışı yaradılıb. Duz istehsal edilən 1050 metrlik şaxtanın uzunluğu dövlət maliyyə dəstəyi ilə 1300 metrə çatdırılıb. Mailiiliyi 75 metr olan şaxtanın daha yüksək səviyyədə və təhlükəsiz işıqlandırılması məqsədilə yeni transformator qoyulub. 750 metr yüksək gərginliyə davamlı kabel xətti çəkilib. Şaxtada çökmələrin qarşısını almaq üçün 18 yerdə bərkitmə işləri aparılıb, 2000 metrlik tros kanat yenisi ilə əvəz edilib. Ötən ildə də bu istiqamətdə işlər davam etdirilib, 1 nömrəli şaxtada mədənbərkitmə işləri üçün Sahibkarlığa Kömək Fondundan 40 min manat dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq işlər vaxtında və keyfiyyətlə yerinə yetirilib.

İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullar məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır.

70 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal sahələrinə gətirilir. Daşduz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülüb hər ton duzun tərkibinə 85 qram yod əlavə edilməklə elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra paketlənir.

Daxili bazarı keyfiyyətli məhsullarla təmin edən kollektiv ötən il 5391 ton daşduz və 2206 ton üyüdülmüş duz istehsal edib. Müəssisə tərəfindən 2340 ton daşduz və 2129 ton üyüdülmüş duz satılıb. Keyfiyyət göstəriciləri ilə seçilən Naxçıvan duzunun ölkəmizin digər regionlarında da satışını təmin etmək məqsədilə Bərdə şəhərində baza yaradılıb. Müəssisədə istehsal olunub ticarət obyektlərinə çatdırılan duzun 3193 tonu Bakı şəhərində və ölkəmizin digər regionlarında, 1276 tonu isə muxtar respublikamızda satışa çıxarılıb.

Onu da qeyd edək ki, insan sağlamlığı üçün vacib elementlərlə zəngin olan Naxçıvan duzunun xarici bazara çıxarılması, tanıdılması istiqamətində işlər davam etdirilir. Ayrı-ayrı ölkələrdə keçirilən biznes forumlarda, sərgilərdə yaxından iştirak edilir ki, bu da iqtisadi əlaqələrimizin genişlənməsinə əlverişli şərait yaradır. Cari ildə də bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılır. Almaniyanın paytaxtı Berlin şəhərində keçirilən "Beynəlxalq Yaşıl Həftə-2017" sərgisində digər məhsullarımızla yanaşı, "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin də məhsulları nümayiş etdirilib.

✍ **Kərəm HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikasında sərnişinlərin təhlükəsiz daşınması üçün yeni nəsil texnologiyalar tətbiq edilir. Nəqliyyat Nazirliyindən "Şərq qapısı"na bildirilib ki, muxtar respublikanın paytaxtında sərnişindaşıyan avtonəqliyyat vasitələrinə "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin təklif etdiyi GPS sistemi quraşdırılır.***

## Naxçıvanda sərnişinlərin təhlükəsizliyi diqqət mərkəzindədir



Bu texnologiyaların köməyi ilə nəqliyyat vasitələrinin hərəkətini izləmək, təhlükəsizliyə nail olmaq, yanacaq xərclərinə qənaət etmək, əmək intizamına, texnikanın istismarına nəzarəti gücləndirmək mümkündür. Naxtel-4G GPS izləmə sistemi hazırda Naxçıvan-Bakı marşrutunda hərəkət edən avtobuslarda uğurla tətbiq edilir. Naxçıvan şəhərdaxili marşrutunda işləyən avtobus və taksilərə isə GPS-lərin quraşdırılması işləri davam etdirilir. İndiyədək bu sistem 32 ədəd avtonəqliyyat vasitəsinə quraşdırılıb. Gələcəkdə bütün nəqliyyat vasitələrində bu xidməti görmək mümkün olacaq.

## İstixana kompleksləri əhalini qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin edir



*Muxtar respublikada sahibkarlığın yeni mərhələyə qədəm qoyması nəticəsində ənənəvi fəaliyyət sahələrinə yeni innovasiyaların tətbiqi daha da genişlənməkdədir. Belə gəlirli sahələrdən biri də yaradılan istixana kompleksləridir.*

Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana kompleksləri mühüm əhəmiyyət kəsb edir. Bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün muxtar respublikada 21 istixana kompleksinin ümumi sahəsi 127 min 162 kvadratmetrdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, 2017-ci ilin yanvar ayı ərzində istixana kompleksləri 44 tona yaxın məhsul istehsal ediblər. Bunun 38,9 tonu pomidor, 4,2 tonu xiyar, 0,71 tonu digər tərəvəz məhsullarıdır.

Cari ilin ötən dövrü ərzində istixana komplekslərində kənd təsərrüfatı istehsalçıları tərəfindən yetişdirilən və satışı həyata keçirilən tərəvəz məhsullarından 21 halda səyyari və laboratoriya təhlilləri aparılıb, normativlərdən kənarlaşma olmadığı müəyyən edilib.

**Xəbərlər şöbəsi**

***1924-cü ildə yaradılan Naxçıvan Dövlət Tarix Muzeyi ötən illər ərzində formalaşaraq xeyli zənginləşdirilib. Hazırda muzeyin fondunda 49 minə yaxın eksponat var. Onların 34 mindən çoxu əsas fondlarda mühafizə olunur. Muzeyin zəngin və çoxçeşidli kolleksiyaları içərisində rəsm əsərləri xüsusi yer tutur. Muzeyin fondunda 150-yə yaxın rəsm əsəri qorunub saxlanılır və onların da bir qismi ekspozisiyada nümayiş etdirilir.***

# Azərbaycanın Xalq rəssamı Toğrul Nərimanbəyovun tarix muzeyindəki əsərləri haqqında

Görkəmli Xalq rəssamları Tahir Salahovun, Toğrul Nərimanbəyovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şamil Qazıyevin, rəssamlardan Eyyub Hüseynovun, Davud Kazımovun, Yuran Məmmədovun və digərlərinin əsərləri muzeyə gələn tamaşaçıların marağına səbəb olur.

Bu yazıda yuxarıda adları qeyd olunan rəssamlardan biri, Azərbaycanın Xalq rəssamı Toğrul Nərimanbəyovun qədim diyarımıza həsr olunmuş və 30 ildən artıq bir müddətdə Naxçıvan Dövlət Tarix Muzeyində qorunub saxlanılan və nümayiş etdirilən "İbtidai insanların məişəti", "İbtidai insanların ov səhnəsi", "Əlincəqalanın müdafiəsi", "Naxçıvan orta əsrlərdə" və "Naxçıvan bazarı" adlı rəsm əsərləri haqqında oxucularımıza məlumat verəcəyik. Əvvəlcə bu möhtəşəm əsərlərin müəllifi Toğrul Nərimanbəyovun kimliyi haqqında oxuculara qısa məlumat vermək istəyirik. İstedadlı rəssam Toğrul Nərimanbəyov 1930-cu ildə anadan olub. 1950-ci ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1955-ci ildə isə Litva Dövlət Rəssamlıq İnstitutunu bitirib. 1950-ci ildən etibarən bir çox yerli və beynəlxalq sərgilərdə iştirak edib. 1955-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul edilib. 1964-cü ildə Azərbaycan SSR-in Əməkdar, 1967-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülüb. 1989-cu ildə SSRİ Xalq rəssamı adını alıb. Ölkə Prezidenti cənab İlham Əliyevin "Toğrul Nərimanbəyovun 80 illik yubileyi haqqında" imzaladığı Sərəncam (22 iyun 2010-cu il) rəssamın yaradıcılığına verilən yüksək qiymətin, ona göstərilən diqqət və qayğının bariz nümunəsidir. Toğrul Nərimanbəyov həmçinin müstəqil Azərbaycanın "İstiqlal" (2000) və "Şərəf" (2010) ordenləri ilə təltif edilib.

Toğrul Nərimanbəyovun yuxarıda adları çəkilən beş rəsm əsəri 1983-cü ildə Naxçıvan Dövlət Tarix Muzeyinin əsas fondunda qeydiyyata alınıb. Həmin əsərlərin hamısı kətan üzərində yağlı boya ilə işlənib.

Görkəmli rəssamın muzeydəki tematik tablolardan ibarət əsərlərinə tamaşa etdikcə kompozisiya dolğunluğunun, obraz bolluğunun, zəngin koloritin şahidi oluruq.

*"İbtidai insanların məişəti"* əsərində hələ ibtidai icma dövründə insanların yaşam tərzi təsvir edilib. Həmin kompozisiyada odun əldə olunması, oda sitayiş, ibtidai insanların yaşadıqları mağaraların işıqlandırılmasında, ovladıqları heyvanların ətinin bişirilməsində oddan istifadə olunduğu ön planda göstərilib. Kompozisiyada ibtidai insanların od qalayıb onun ətrafında dövrə vurması, iki nəfərin ovladığı heyvanı mağaraya gətirməsi nisbətən arxa planda təsvir edilib. Həmçinin ön planda qaya parçası üzərində yandırma yolu ilə hər hansı bir hiptoqrafik işarəni həkk etməsi səhnəsi verilib.



Toğrul Nərimanbəyov ibtidai insanların məişəti ilə yanaşı, onların əsas məşğuliyyətlərindən olan ovçuluğu da kətan üzərində təsvir edib. *"İbtidai insanların ov səhnəsi"* adlı əsəri bu qəbildəndir.

İbtidai dövrdə odu əldə edən insanların qidalanmasının əsas mənbələrindən biri məhz ov zamanı qazandıqları qənimətlər olub. Əsərdə insanların gecənin qaranlığında vəhşi heyvan sürülərini odla qorxutması, onları qovub dağların başından dərəyə yuvarladıb tələyə salması, sonra sümüklərdən hazırlanmış kəsici və deşici alətlərdən istifadə etmələri kompozisiyanın mərkəzində təsvir olunub.



Toğrul Nərimanbəyovun muzeyin ekspozisiyasında nümayiş etdirilən digər bir əsəri isə *"Əlincəqalanın müdafiəsi"* adlanır. Rəssamın bu tablosunda Əlincəqalanın ətəyində geniş bir ərazidə döyüş səhnəsini görürük. Əsərdə 14 il Əmir Teymurun qoşunlarının hücumlarına qarşı mərdliklə mübarizə aparan əlincəlilərin simasında xalqımıza məxsus məğrurluq, mübarizlik və vətənpərvərlik əzmi ifadə olunub. Uzun illər yadellilərə qarşı müqavimət göstərən Əlincəqalanın özünəməxsus əzəməti də kompozisiyada öz uğurlu həllini tapıb.



*"Naxçıvan bazarı"* adlı əsərində Toğrul Nərimanbəyov kətan üzərində bazar kompozisiyasını canlandırmaqla bərabər, burada xalqımızın məişətini və etnoqrafiyasını da məharətlə göstərə bilib. Bərəkətli Naxçıvan torpağında yetişdirilən meyvə və tərəvəzlərin, naxçıvanlı xalçaçılar tərəfindən toxunan xalçaların, kilimlərin və palazların, ustaların hazırladıqları dulusçuluq və misgərlik məmulatlarının təsviri bu bölgədə sənətkarlığın inkişafından xəbər verir. Kompozisiyada yüklü dəvələrin təsviri isə İpək Yolu üzərində yerləşən Naxçıvanda ticarətin inkişafının göstəricisidir.



Rəssamın *"Naxçıvan orta əsrlərdə"* adlı əsəri doğma diyarımızın qədim tarixi və mənzərəsi haqqında çox şey deyir və tamaşaçıda bu əfsanəvi yurd yeri haqqında gözəl duyğular yaradır. Kompozisiyanın mərkəzində dəvə karvanı ilə hərəkət edən sarvan təsviri əsrarəngiz Şərq dünyasının nağılını xatırladır. Əsərin fonunda isə qədim Şərq memarlığı üslubunda inşa edilmiş köhnə binalarla yanaşı, Naxçıvanqala və



"İmamzadə" kompleksi də təsvir olunub. Səmaya ucalan dağların zirvələri buludlarla əhatələnib. Rəssam Naxçıvan təbiətinə məxsus xüsusiyyətləri dəqiqliklə göstərməyə çalışıb.

Göründüyü kimi, Toğrul Nərimanbəyovun çoxşaxəli yaradıcılığında Naxçıvan mövzusu xüsusi yer tutur. Yuxarıda da qeyd etdiyimiz kimi, onun Naxçıvanla bağlı yaratdığı rəsm əsərlərində Naxçıvanqala və Əlincəqala da təsvir olunub. Vaxtilə müdafiə məqsədilə istifadə edilən bu qalalarda son illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə elmi-tədqiqat və bərpa işləri aparılıb, onların yerləşdikləri ərazilərdə abadlıq tədbirləri həyata keçirilib. Bu gün istər Naxçıvanqala, istərsə də Əlincəqala ərazisində yaradılan muzeyləri ziyarət edən hər kəs Naxçıvan tarixində öz yeri olan bu qalalar haqqında ətraflı məlumatlar əldə edə bilir.

***Toğrul Nərimanbəyovun yaradıcılığını dərindən öyrənməyə səy göstərən bələdçilərimiz muzeyə gələn tamaşaçılara Naxçıvan tarixinin müxtəlif dövrləri barədə verdikləri məlumatları rəsm əsərləri ilə əlaqələndirməklə həmin məlumatları daha da zənginləşdirməyə çalışırlar.***

**Nizami RƏHİMOV**
***Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi***

# Keçmişimizə şahidlik edən *Salaxana mağarası*

***"Atasının, anasının əlini öpdü, halallaşdı, "salamat qalın!" – dedi. Təpəgözün olduğu Salaxana qayasına gəldi".***



Sivilizasiyanın ilkinliyini bu gün də qoruyub saxlayan çoxlu sayda tarixi abidələr var ki, onlardan biri də mağaralardır. Azərbaycanda belə mağaraların sayı kifayət qədərdir. Böyük və Kiçik Qafqaz sıra dağlarının ətəklərində, Naxçıvan Muxtar Respublikasında, Kəlbəcər, Zəngilan, Gədəbəy, Göygöl, Şamaxı və Füzulidə aşkar edilmiş mağaraların yaşı minilliklərə gedib çıxır.

Naxçıvan Muxtar Respublikasında yerləşən, qədim tarixi abidəmiz olan, "Kitabi-Dədə Qorqud"un "Basatın Təpəgözü öldürdüyü boyu"nda adıçəkilən Salaxana mağarası da bunlardan biridir.

AMEA-nın müxbir üzvü, mərhum Səfərəli Babayevin müəyyən etdiyi indiki Babək və Şərur rayonlarının qovuşduğu ərazidə yerləşən Salaxana mağarası Naxçıvanın qədim tarixinə nəzər salmaq üçün güzgüdür.

Bəzi tədqiqatçıların fikrincə, "Kitabi-Dədə Qorqud" dastanında Təpəgözün iki mağaradan – böyük və kiçik mağaralardan istifadə etdiyi göstərilir. Akademik İsa Həbibbəyli bu barədə yazır: "Kitabi-Dədə Qorqud"un həmin boyundakı Basatın oturduğu, yəni yaşadığı yurd kimi təsvir edilən Günortac yer adının da Salaxana – Qazma mağaraları ərazisinə yaxın olması bu ehtimalı daha da dərinləşdirir. Çox ehtimal ki, Salaxana qayası, bütövlükdə, Təpəgözün oğuzların arasından qovularkən gəlib yerləşdiyi "uca dağ məskəni" olan ərazinin ümumi adıdır".

Səfərəli Babayev də Babək rayonunun dağlıq sahəsində Salaxan qayası, Salaxan yurdu və Salaxan mağarasının olduğunu yazırdı: "Salaxana mağarası Salaxana qayası ərazisində yerləşən bir mağaradır. Təpəgözün Basatla vuruşduğu Salaxana mağarası quruluşuna görə Qazma mağarasına bənzəyir. O biri mağara isə Təpəgözün silah-sursat, ərzaq anbarı təəssüratı yaradır".

Salaxana Babək rayonu ərazisində təbiət abidəsidir. Xalq arasında da bu adla tanınır. "Naxçıvan Abidələri Ensiklopediyası"nda Salaxan yurdu və Salaxana mağarası barəsində oxuyuruq: "Salaxana dərəsi və ətrafı mürəkkəb tektonik quruluşa və relyefə malikdir. 4 kilometrə qədər uzanan konvoyları, çətin keçilən struktur terraslı Salaxana dərəsi və onu əhatə edən bölgə, əsasən, sahəvi, pelitomorf, nazik təbəqəli və gilli-qumlu əhəngdaşlarından, gildən və konqlomeratlardan ibarətdir. Vahimə doğuran dərənin sonunda, sağ tərəfdə, qayaların arasında iki mağara var".

"Kitabi-Dədə Qorqud" da həmin məkanın adı belə çəkilir: "Basat deyir: "Mütləq gedəcəyəm!" Qazan deyir: "Özün bilərsən". Atası ağlayıb deyir: "Oğul, ocağımı sahibsiz qoyma, rəhm elə, getmə!" Qoldan bir tutam ox çıxardı, qurşağına keçirdi. Qılıncını da qurşandı. Yayını qoluna saldı. Ətəklərini yığışdırdı. Atasının, anasının əlini öpdü, halallaşdı, "salamat qalın!" – dedi. Təpəgözün olduğu Salaxana qayasına gəldi. Gördü ki, Təpəgöz arxasını günə verib yatır".

Alman şərqşünası Fridrix fon Ditsin qənaətinə görə, Homer Asiya səyahətində Təpəgöz əfsanəsini eşidib və Polifemin əsas həyatını oradan alıb. Kim bilir, o, bəlkə, əfsanəni hər hansı bir oğuz qəbiləsindən eşidib.

Bu müqəddəs torpağın hər qarışını gəzmək, dolaşmaq, hər daşı, qayası tarix olan yerləri görmək, tarixin səsinə qulaq asmaq, dövrün nəfəsini duymaq dünənimizi öyrənmək baxımından hər birimizin vətəndaşlıq borcuna çevrilməlidir. Elə məkanlar axtarmaq, tapmaq, qorumaq, gələcək nəslə ötürmək də eləcə. Salaxana mağarası da Naxçıvan torpağının böyük əhəmiyyət daşıyan tarixi məkanlarından biridir. Bununla fəxr etməklə qalmayıb, sirli həqiqətləri öyrənməyə çalışmalıyıq. Çünki bu həqiqətlər bizim şərəfli tariximizin daş səhifələridir.

**Nərgiz İSMAYILOVA**

# Ötən ildə doğulan uşaqların çoxu oğlandır



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, 2016-cı ildə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 449 min 143 nəfər olub. Bu, 2015-ci ilə müqayisədə 1,4 faiz artım deməkdir. Ötən il muxtar respublikada 6 min 510 yeni uşaq doğulub. Uşaq ölümü kəskin şəkildə azalıb. Belə ki, 2016-cı ildə dünyasını dəyişənlər arasında 0-17 yaşadək uşaqlar 0,3, körpə ölümü isə 1,5 promilli təşkil edib. Təbii artım 4 min 660 nəfərə çatıb. Yeni doğulanlar arasında 52 faizlə oğlanlar üstünlük təşkil edir. 48 faiz isə qızların payına düşür. Doğum göstəricisinin artması, ölüm hallarının isə aşağı düşməsi nəticəsində təbii artımın yüksəlməsində muxtar respublikada tibbi qulluq və səhiyyə xidmətlərinin müasir səviyyədə təşkili də əhəmiyyətli rol oynayır. Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında hamiləliyin erkən qeydiyyata alınması, bu istiqamətdə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması, bütün doğuşların xəstəxanada idarə olunması işi yüksək səviyyədə təşkil edilib.

# Teatrda yeni tamaşa hazırlanır

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Əli Əmirlinin "Onun iki qabırğası" adlı komediyasının məşqlərinə başlanılıb.***

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.

Yeni tamaşada rolları Azərbaycan Respublikasının Əməkdar artistləri Əbülfəz İmanov və Behruz Haxverdiyev, aktyor və aktrisalar Zəminə Baxşəliyeva, Nurbəniz Niftəliyeva, Zakir Fətəliyev və Nazlı Hüseynquluyeva ifa edirlər. Komediyanın premyerası mart ayının sonlarında nəzərdə tutulub.

Qeyd edək ki, bu tamaşa ilə bərabər, Naxçıvan Dövlət Musiqili Dram Teatrında Tofiq Seyidovun rejissorluğu ilə Moris Meterlinqin "Göy quş" əsərinin də məşqləri davam edir. Hər iki tamaşa teatrın builki repertuarına salınıb. Bundan başqa, teatrsevərlər bu il Məmməd Səid Ordubadinin "Qılınc və qələm" əsəri və Hüseyn Cavidin "İblis" dramı əsasında səhnələşdirilən tamaşalara da baxa biləcəklər.

**Səməd CANBAXŞIYEV**

## Tatuaj insan sağlamlığı üçün təhlükəlidir

**Həkim Fatma Məmmədli:** *"Tatuaj ciddi yoluxucu xəstəliklərin sürətlə yayılmasına gətirib çıxarır".*

**Dini Qurumlarla İş üzrə İdarənin əməkdaşı Bəhruz Gülmalıyev:** *"Bütün səmavi dinlər döymə etdirməyi haram buyurur".*

**Ziyalı gənc Vurğun Əsgərli:** *"Fərqlilik, digərlərindən öndə olmaq elm, ağıl, məntiq, mədəniyyət ilə mümkündür".*

***Son zamanlar gənclər arasında bədənə döymə, yəni tatuaj etdirmək "populyarlıq" qazanıb. Qeyd etmək lazımdır ki, tatuaj nəinki gənclər, hətta ortayaşlı nəslin nümayəndələri arasında da dəb halına çevrilib. Təəssüf ki, keçmişdə nənələrimizin xınalı əlləri bu gün öz yerini tatuajlı əllərə verir. Hərdən düşünürəm ki, bizə kələğayı kimi incə miras qoyub getmiş nənələrimiz məsləhətli olsa idi, tatuajı da miras qoyar, ona sahib çıxmağımızı vəsiyyət edərdi. Başına hələ də kələğayı örtən nənələri, gəlinləri olan bir ölkədə tatuaj daşıyıcılarının olması heç də arzuolunan deyil. Bəs gəlin görək nədir bu bizim milliliyimizlə heç də yovuşmayan tatuaj?***

Tatuaj müxtəlif simvollar və ya şəkillərin bədəndə əks etdirilməsidir. Bəzilərinə tatuajın psixoloji və dini baxımdan izahı məlum olmasa da, insanların çoxu tibbi baxımdan onun fəsadlarından xəbərdardır. Bəli, tibbi biliyinin olub-olmamasından asılı olmayaraq, çoxları bilir ki, tatuaj zamanı bəzi təhlükəli xəstəliklərlə üzləşmək mümkündür. Belə hallarda yarana biləcək xəstəliklər barədə daha dolğun cavab almaq üçün Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin Dəri-zöhrəvi şöbəsinin həkimi Fatma Məmmədliyə müraciət etdik:

– Aparılan tədqiqatlar nəticəsində döymənin insan sağlamlığına, xüsusən də dəriyə vurduğu ziyanlar aşkar edilib. ABŞ-da və Avropanın bir çox ölkələrində qalıcı, yəni daimi döymələrdə istifadə olunan maddələrin 40 faizdən çoxunun tibbi cəhətdən qadağan olunduğu ortaya çıxıb. Qeyri-peşəkar şəxslər tərəfindən edilən döymələrdə, əsasən, avtomobil boyaları, printer mürəkkəbləri kimi kimyəvi maddələrdən istifadə edilir ki, bu da dəridə ağır dərəcəli yanıqların əmələ gəlməsinə səbəb olur.

Fatma Məmmədlinin sözlərinə görə, şüursuz şəkildə edilən bu əməliyyat gen mutasiyalarına, hamilə qadınların və onların bətnindəki körpələrin anomaliyalarına, xərçəng xəstəliyinə və bir çox biokimyəvi reaksiyalara səbəb olur. Döymə QİÇS (AİDS), herpes virusu, hepatit B, hepatit C, sifilis kimi ciddi yoluxucu xəstəliklərin yayılmasına gətirib çıxarır. Bununla yanaşı, dəridə allergik reaksiyalar, limfa vəzlərinin iltihablaşması baş verir. Metal tərkibli döymələr MRT müayinəsi zamanı şiddətli ağrılar törədir.

Genetik cəhətdən allergik reaksiyalara meyilli və eyni zamanda dəri ilə bağlı xroniki xəstəlikləri olan şəxslərin döymə etdirməsi çox risklidir. Bu cür problemləri olan xəstələrdə döymədən sonra ekzema, psoriaz (pullu dəmrov), övrə və dərialtı ödemlərin əmələ gəlmə ehtimalı böyükdür.

Psixoloq Şahnaz Məmmədova isə tatuajlı insanların bir çoxunda psixoloji problemlərin aşkarlandığını vurğulayır:

– Bəzi alışqanlıqların sürətlə yayılmasına baxmayaraq, çox az adam onların risklərini bilir. Dünyada hər yaşdan, hər peşədən olan qadınlar və kişilər arasında tatuaj artıq dəb halını alıb. Bu işə girişənlər bu keçici duyğunu qalıcı hala saldıqlarını bilmirlər. Döymənin kökünə baxsaq, görərik ki, o, nişandır. Məsələn, əvvəllər həbsxanada olanlar, dəniz quldurları bu işarələrlə bir-birini tanıyıb, informasiya daşıyıcısı kimi döymənin növündən kimin kim, nəçi olduğunu öyrəniblər. Sonralar isə insanlar döymədən seçilmək, fərqli görünmək üçün istifadə etməyə başlayıblar. Fərqli görünüşə sahib olmağa çalışan gənclərin bəzən psixoloji vəziyyətləri düşündüyümüz qədər ürəkaçan deyil. Döymələrin şəklinə baxanda o insanların, xüsusilə də gənclərin düşüncələrini oxumaq çətin olmur. Bu fərqlilik onlara anormal özgüvən verir və bəzi hallarda cəmiyyətdən təcrid olunmağa vadar edir. Nəticədə, onlarda özünə qapanma və intihara meyillilik artır.

Şahnaz Məmmədova deyir ki, bu gün ən çox döymə etdirənlər yeniyetmələrdir. Yeniyetmə isə gündə bir fikrə düşə bilər. Kimisi fərqli görünmək, seçilmək üçün, kimisi də başqa bir səbəbdən döymə etdirir. Əksər tatuaj etdirənlər mütləq nədənsə əziyyət çəkir: alkoqolizmdən, yaxud digər asılılıq yaradan vərdişlərdən. Biz onların istəklərinə qarşı deyilik. Sadəcə, bir istək müəyyən müddətdən sonra narahatlıq yaradacaq, əzab verəcəksə, bunu düşünüb etmək yolunda israrlıyıq. İnsanlar heç nəyi səbəbsiz etmirlər. Atılan hər addım, verilən hər qərarın iç dünyamızda bir qarşılığı var. Döymə etdirmə arzusunun da belə. Döymənin ümumi məqsədi xaricdən baxanda daha zövqlü görünmək olsa da belə, şüur altında sosial-psixoloji səbəblər yatır. Döymə etdirməklə bağlı araşdırmalar onu göstərir ki, ilk döymə etdirmə yetkinlik dövrünə təsadüf edir. Döyməyə bədənin estetik gözəlliyi kimi baxanlar da var. Hətta bəzi araşdırmalarda, xüsusilə yetkin yaş dövründə olanlara niyə döymə etdirdiklərini sual veriblər. Yüzdə 25-i niyə etdirdiyini bilmədiyini, yüzdə 25-i estetik olaraq özünə daha güvən qazandığını, yüzdə 25-i bir çox başqa səbəb söyləyib.

Valideynlər övladlarını belə bir zərərli vərdişdən uzaq tutmaq üçün kiçik yaşlarından bu barədə təbliğat aparmalıdırlar. Bildiyimiz kimi, uşaqlar bir-birlərindən davamlı olaraq təsirlənirlər. Ən yaxşı telefona sahib olmaq, ən yaxşı geyinmək kimi döymə də uşaqlar arasında bir dəb halını almaqdadır. Ailələr bu məqamda döymənin bəzi tibbi risklərindən uşaqlara açıqlamalar verməklə onları bu həvəslərindən uzaqlaşdıra bilərlər. Bu tibbi risklərin içində ölümcül niyyətli QİÇS-dən hepatit B və hepatit C, tetanoza qədər bir çox xəstəliklər haqqında danışmalı, döymə ilə yoluxan xəstəliklər barədə məlumat verməlidirlər.

...Bəs gəlin görək İslam dinində bu haqda nə deyilir? Tatuaj İslam dinində necə qəbul edilir? Ən əsası da o, eşitdiyimiz kimi, doğrudan da günah sayılırmı?

Məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin əməkdaşı Bəhruz Gülmalıyevlə həmsöhbət oluruq:

– Tatu, yəni döymə insan dərisində boya maddəsiylə çəkilən qalıcı şəkil deməkdir. İnsanlar qədim zamanlardan bəri bu işlə məşğul olublar. Keçmişdə döymə dəriyə yanyana kiçik dəliklər açmaq və bu dəliklərə sürmə, mürəkkəb, xına və boyaq maddələri sürtməklə edilirdi. Bununla yanaşı, döymə etməyin bıçaqla və ya dırnaqla dəridə dərin yarıqlar açmaq kimi başqa üsulları da var idi. Modern döyməçilər isə xüsusi olaraq hazırlanmış elektrik döymə aparatlarından istifadə edirlər. Elektrik döymə aparatı insan bədənində kiçik nöqtələr şəklində dəliklər açır, sonra həmin dəliklərə müxtəlif rəngli boyaq maddələri sürtülür.

Bütün səmavi dinlər döymə etdirməyi haram buyurur. Məsələn, Tövratda bədənə döymə etdirmək ölmüş adam üçün ağı deyib ağlayanın dırnaqlarıyla üzünü yırtmasına bənzədilib: "Ölülər üçün bədəninizdə yara açmayacaqsınız, özünüzə döymə işarəsi qoymayacaqsınız".

Ərəbcə "vaşm" sözü ilə ifadə edilən döymə Məhəmməd Peyğəmbər dövründə cahillik çağının bir qalığı olaraq, xüsusilə qadınlar arasında məşhur idi. Ən gözəl şəkildə yaradılan insan simasının təbii görünüşünün süni yolla dəyişdirilməsinə qarşı çıxan Məhəmməd Peyğəmbərin bədənə edilən döymə ilə bağlı narazılıq bildirən hədislərinə də rast gəlirik. Döymə etdirmənin dini hökmü baxımından qadınla kişi arasında fərq yoxdur.

Yaxşı ki muxtar respublikada bu halla çox az qarşılaşmaq mümkündür. Ümumiyyətlə, bu coğrafi məkanın əhalisinin çox az, hətta deyə bilərəm ki, cüzi bir hissəsi tatuaj sahibidir.

Zənnimcə, muxtar respublikada yaşayan gənclərin də bu mövzuda fikirlərini öyrənmək lap yerinə düşər. "Gəncliyimiz gələcəyimizdir, onların düşüncələrindən yan ötmək olmaz", – deyib üz tuturuq gənclərə.

Ziyalı gənc Vurğun Əsgərli tatuaj barədə düşüncələrini bizimlə belə bölüşür:

– Döymənin tarixi olduqca qədimdir. Keçmişdə Misir piramidalarından çıxan fironların mumiyalanmış bədənlərində tatulara rast gəlinib. Belə tatular qədimdə qoruyucu, sehrli güc kimi qəbul edilirdi. Mədəni cəhətdən daha inkişaf etmiş qədim Yunanıstan və antik Romada tatuaj barbarlıq nümunəsi sayılır və bəyənilmirdi. Müasir dövrdə gənclərin tatulara meyil etməsi, onları bəyənməsi qəribə və anlaşılmazdır. Əvvəla, bu, QİÇS kimi xəstəliklərin yayılmasına səbəb olur. Digər tərəfdən isə başqalarından fərqli görünmək istəyini bu cür ucuz hərəkətlərlə təmin etməyə çalışmaq, sadəcə, gülüncdür. Yaşadığımız həyat bizə xarici görkəmində dəyişiklik edərək, müxtəlif formalarda görünərək özünə sevgi, diqqət cəlb etməyin mümkün olmadığını sübut edib. Fərqlilik, digərlərindən öndə olmaq elm, ağıl, məntiq, mədəniyyət ilə mümkündür ki, insana yaraşan da məhz bu ali dəyərlər uğrunda yaşayıb bu dəyərlərlə fəxr etməkdir. Bundan əlavə, Uca Yaradan hər bir insanı ən möhtəşəm şəkildə yaradıb. Fikrimcə, süni dəyişikliklərə ehtiyac yoxdur.

Sədayə Qurbani də bu mövzuda fikirlərini bizimlə bölüşür:

– Dövrümüzdə, yaşadığımız mühitdə insanların tatuaja baxışı o qədər də yaxşı deyil, eləcə də mənim. Buna səbəb kimi bəziləri onun dini baxımdan günah olduğunu, bəziləri isə tibbi baxımdan fəsadlarını misal göstərirlər. Mən belə düşünürəm ki, gənc yaşlarında edilən döymə bir həvəs, fərqlənmə nişanəsidir. Bunu da nəzərə almalıyıq ki, dərimiz həmişə indiki kimi təravətli qalmayacaq. Bu da o deməkdir ki, gəncliyimizdə sevərək etdiyimiz tatuaj illər sonra dərimizin deformasiyası zamanı öz formasını itirərək xoşagəlməz bir görüntü əmələ gətirə bilər. Buna görə də belə qərar verməzdən əvvəl zamanı da göz önünə gətirmək lazımdır.

Hazırda ən mürəkkəb təsvirləri belə, insan bədəninin müəyyən nahiyələrinə həkk etmək mümkündür. Digər bir məsələ isə onun rəngindədir. Fikir versək, görərik ki, əvvəlki dövrlərdəki tatuajlar yaşıl rəngdə olub. Bir qaynaqda deyilir ki, döymə ilə tatuaj, əslində, fərqli anlayışlardır. Döymə hər hansı bir yerin izi, ləkəsi deməkdir. Döymə həbsxananın, məhəllə qarajlarının qaranlıqlarının yadigarıdır. Amma tatuaj sırf peşəkar bir incəsənətdir. Yəni sözügedən tatuajların yaşıl rəngdə olması, əslində, sübut edir ki, onlar tatuaj deyil, ondan nisbətən fərqlənən döymədir. İstəyinə görə vurulan piqmentin tündlüyündən asılı olaraq sarı, qara, yaşıl, qırmızı və sair rənglərdə də tatuaj etdirmənin mümkün olduğunu bildiyimiz üçün bu iddia ilə tam razılaşa bilmirik. Əvvəldə də qeyd edildiyi kimi, hər kəsin öz iradəsi, müəyyən mənada istədiyini etmək haqqı var. Məqsədimiz tatuaj etdirmək istəyən insanları, xüsusilə də gəncləri bu barədə maarifləndirərək onları bu işə qərar verməzdən əvvəl bir daha düşünməyə vadar etməkdir. Atalarımız demişkən, yüz dəfə ölç, bir dəfə biç ki, sonradan etdiyinin peşmançılığını çəkməyəsən!

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin yanvar ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 1279230 | 130921 | 131551 | 100,5 |
| 2. | Ordubad rayonu | 2230256 | 223628 | 224329 | 100,3 |
| 3. | Babək rayonu | 4169036 | 417715 | 418559 | 100,2 |
| 4. | Culfa rayonu | 2320563 | 232219 | 232605 | 100,2 |
| 5. | Şərur rayonu | 3693256 | 370051 | 370499 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5378263 | 547306 | 547844 | 100,1 |
| 7. | Sədərək rayonu | 454013 | 45401 | 45422 | 100,0 |
| 8. | Kəngərli rayonu | 1596560 | 159686 | 159697 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12465855 | 2490936 | 2057270 | 82,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33587032** | **4617863** | **4187776** | **90,7** |

## Güləş birinciliyi başa çatıb



***Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbində yeniyetmələr (2002-2004-cü illər) arasında yunan-Roma güləşi üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxış edərək yarışın qaydaları haqqında idmançılara məlumat veriblər.

Birincilikdə 10 çəki dərəcəsi üzrə 50-yə yaxın güləşçi qüvvəsini sınayıb. Açıq birincilikdə Naxçıvan şəhəri və Sədərək rayonunun idmançıları iştirak ediblər. Yarışın yekununa əsasən, Mirsamir Seyidov, Turqay Allahverdiyev, Hüseyn Əhmədli, Heydər Nəcəfov, Heydər Heydərov, Abbas Nəzərəliyev, Əli Əlioğlu, Rəvan Bayramov, Elnur Əlizadə və Qoca Əhmədov müvafiq olaraq 35, 38, 42, 46, 50, 54, 58, 63, 69 və 76 kiloqram çəki dərəcələrində birinci yerə layiq görülüblər.

Hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Yeni idman bölmələri açılıb

***Şərur Olimpiya-İdman Kompleksində qızlar üçün üzgüçülük və bədii gimnastika üzrə bölmələr fəaliyyətə başlayıb.***

Bölmələrin ixtisaslı müəllimlərlə təmin edilməsi də diqqət mərkəzindədir. Buna görə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikası Bədii Gimnastika Federasiyasının birgə təşkilatçılığı ilə Yengicə kənd tam orta məktəbinin ixtisaslı fənn müəllimi Sevinc Nəcəfova Bakı şəhərinə bədii gimnastika üzrə ixtisasartırma kursuna göndəriləcək. Bu addımlar 2017-ci il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə verilmiş tapşırıqlara əsasən atılıb.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Orucov Asif Sultan oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 104